***Ülvi***

***19 yanvar faciəsinin qurbanı, istedadlı gənc şair Ülvini oxuyandan sonra.***

Oxudum “Ömür yolu”nu,
Nə sehirli yoldu bu yol,
Bərkdən keçən, boşdan keçən,
Enişli, yoxuşlu bu yol.

Bitirməmiş təhsilini
Poqon yapışdı çiyninə,
Alovların içində də,
Ölüm gəlmədi əyninə.

Kitabını vərəqlədim,
Şüşə qəlbim çilik-çilik.
“Həyat üçün doğulmuşuq,
Vətən üçün ölməliyik”.

Düşündükcə dərin-dərin;
Nə oğullar varmış: - Dedim,
Bu mərama, bu məqsədə
Dönə-dönə: - Alqış! – dedim.

Ərəbistan – Qəm dastanı,
Enir bəmə, qalxır zilə.
Talandı bağı, bostanı,
Aydan-aya, ildən-ilə.

Qədim binalar dağılıb,
Çöl quşları baxıb keçir.
Yaralanmış ağacları
Külək döyür, dolu biçir.

Qapı bağlı, həyat səssiz,
Əkin, biçin iraq düşüb.
Neçələri xəbərsizdi,
Neçələri uzaq düşüb.

Hərə bir yandan soxulur,
Əllərində odlu silah.
Kimi kimdən qoruyursan,
Bu yerlərdə axşam-sabah.

Nə üçündü bu hay-haray,
Vətən harda, de, sən harda?
Yazıq ata, yazıq ana
Gözü yolda, intizarda.

Həssas oğul, həssas bala,
Nə kövrəkdir qəlbin sənin.
Yadındadı balasına
Çörək verən gəlin sənin.

Yadındadır o göz yaşı,
O sızıltı; o iztirab,
Nə yerlərdən bir səs çıxır,
Nə göylərdən gəlir cavab.

Dörd yarayla ürəyinə
Naxış çəkdi o qəbirlər.
Ömür boyu unudulmaz
Əli, Səməd, Vaqif, Məhər.

Bir durub, bir oturduğun,
Bir danışıb, bir güldüyün,
Dörd eloğlu yoxdur artıq
Bu nə həsrət, bu nə düyün.

Allah bilir, bu dörd qəbri,
Kimlər gəlib seyr edəcək?
Bakı uzaq, Gəncə uzaq,
Kim gələcək, kim gedəcək?

Qoruyanı kim olacaq,
Axşam-axşam, səhər-səhər.
Hayıf sizə, bir də hayıf
Əli, Səməd, Vaqif, Məhər.

Əfqanıstan  - qəm dastanı,
Qədim ölkə, qədim diyar.
Bir torpağın yüz yarası,
Bir başın yüz bəlası var.

Az keçmədi  başın üstdən
Qəfil düşmən gülləri,
Ülvi bala, bu səfərdən
Sağ-salamat döndün geri.

Geri döndün alnı açıq,
Anıb doğma ev-eşiyi,
Xatırladın Kəsəməni,
Ilk ocağı, ilk beşiyi.

Xatırladın Şişqayanı,
Zodu, Məzrəni, Pəmbəyi.
Keçmək olmaz Ağbulaqdan,
Dağ kəndinin dağ ürəyi.

Göyçə gölü, Gömgöy oldu,
Döndü oda, gözə Göyçə.
Nə tez pozuldu cəlalı,
Nə tez gəldi gözə Göyçə.

Neçə yol çatıldı qaşı,
Dağıldı torpağı, daşı,

Axıtdı sel kimi yaşı,
Dərdə dözə-dözə Göyçə.

Yağılar üstünə düşdü,
Qoca köçdü, cavan köçdü.
Köhnə Göyçə nə görmüşdü,
Nə görəydi təzə Göyçə?!

Neçə dəfə dağıldılar,
Yığıldılar göyçəlilər.
Dağılmayın söyləsəm də,
Dağılıdılar Göyçəlilər.

Qızıl yanaqların dəyişdi rəngi,
Niyə birdən-birə ay kimi axdın.
Mənə elə gəlir, elə gəlir ki,
Göyçə bəlasını sən yazacaqdın.

Necə baş götürüb cöllərə düşdü,
Yarpızlı, Qızılvəng, Kərkibaş hanı?
Fəğanı, fəryadı dillərə düşdü,
Tanımaq mümkünmü Nərimanlını?

İlk dəfə Cil olub dildə əzbərim,
Müseyib ötürdü toyda, mağarda.
Mənə elə gəlir ayaq izlərim
Yaxın vaxtlaradək dururdu orda.

Dağlar zirvəsində daş abidələr,
Hayıf cox yazılar pozuldu getdi.
Ağ aşıq, Ağayar, Alı, Ələsgər
Bir göz qırpımında yox oldu, getdi.
İçmidə kimsəsiz bir kaman inlər,
Ötən görüşləri salıram yada.
Yunusla, Qəşəmlə gördüyüm günlər
Gözümün önünə gəlir Bakıda.

Yunus dağ cüssəli, cəsur, mehriban,
Nələr yaratmadı Basarkeçərdə.
İşə bax, yığılıb yaldan, yamacdan,
Kimlərdir kefini çəkən bu yerdə?

Gərək yaşayaydın sən belə gündə,
Sinəni kürsüyə verib qızaydın.
Ələsgər dilində, Alı dilində
Göyçə dastanını özün yazaydın.

Bir ata köksündə övlad yarası,
Bir ana gözündə yaş olmayaydı.
Hər fəslin nazını çəkmək asandı,
Həyatda uğursuz qış olmayaydı.

Tutdu tutduğunu namədlər yenə,
Verirlər qol-qola, çiyin-çiyinə.
Bir insan köksündə ürək yerinə
Sayğısız, duyğusuz daş olmayaydı.

Tükənib sinədə ahım, amanım,
Qalmayıb kimsəyə artıq gümanım.
Necə alov tutub, yanmasın canım,
Qarlı qış gecəsi kaş olmayaydı.

Ah-aha qoşuldu, fəryad-fəryada,
Şəhər məhvərindən qopdu elə bil.
Aləmə yayılan bu səs, bu səda,
Əsla qulaqlardan silinən deyil.

Axdı yanaqlara isti göz yaşı,
Çiçək dəstə-dəstə, gül dəstə-dəstə.
Əyilməz bir xalqın əyildi başı
Şəhid balaların məzarı üstə.

Kəsdi aramızı zalım ayrılıq,
Çapmaz sinəmizi dağladın o gün.
Sizin toyunuzda oynamalıydıq,
Sizin vayınıza ağladıq o gün.

Bu başqa müsibət, bu başqa bəla,
Yerlər xəbər tutdu, göylər eşitdi.
Getdi çiynimizdə neçə mərd bala,
Onlara qoşulub Ülvi də getdi.

Sinə qaynar, alın açıq, dil şirin,
Bir söhbəti məzəlini itirdik.
Şəklinə baxıram, kişidən kişi,
Oğulların gözəlini itirdik.

Od nəfəsi yandırıcı, yaxıcı,
Baxışları alıcıdan, alıcı.
Misraları bir-birindən axıcı
Şe`rini, qəzəlini itirdik.

Bir yenilməz qəhrəmandı Boz atda,
Bir sevimli şair idi elatda.
Biz Ülvinin simasında həyatda
Koroğlunu, Füzulini itirdik.

Arif A. Ülvi : şeir // Azərbaycan gəncləri. – 1991. – 27 aprel.